AZERLIME®

azalacaq xərciniz!

SUVAQ ÜÇÜN ƏHƏNG

- Sementi 50%-ə qədər azaldır və eyni zamanda suvağın möhkəmliyini artırır
- Daha çox səth suvanır
- Antibakterialdır, ekoloji təmizdir
- Yapışqanlığı yüksəkdir, yerə tökülmür

✓ ***Nəticədə siz xərclərinizə 25% -ə qədər qənaət edirsiniz***

Mətanət A®

AZERLIME

AZERLIME®

www.azerlime.az

Müstəqilliyimizin 25 illik tarixində ölkəmizdə güclü sahibkarlar təbəqəsi formalaşıb və respublikamız regionun ən sürətlə və dinamik inkişaf edən ölkəsinə çevrilib. Məhz müstəqillik dövründə müxtəlif istiqamətlərdə iqtisadiyyatın inkişafı və sürətlə gedən quruculuq işləri Ümummilli Lider Heydər Əliyevin uzaqgörən siyasəti və gərgin fəaliyyəti nəticəsində bir çox sahələrdə olduğu kimi sahibkarılq sahəsində də dirçəlişə səbəb oldu. İqtisadiyyatın sürətli inkişafı nəticəsində yeni tələblər ortaya çıxdı. Bu tələblər tikinti sektorunda da özünü göstərdi. Belə ki, 2000-ci ilə qədər inşaat sektorunda istifadə olunan qarışıqlar, yapışdırıcılar, boyalar və s. əsasən xaricdən idxal olunurdu. Bu, təmir və tikintinin baha başa gəlməsinə və köhnə metodların tətbiqinin qalmasına səbəb olurdu. Keçid dövrü adlanan bu zaman kəsiyində artıq yerli istehsal müəsisələrinin və sənaye komplekslərinin yaradılmasına ehtiyac yarandı.

Dövlətin sahibkarlığa verdiyi dəstək nəticəsində müstəqilliyimiz dövründə bir çox istehsal müəssisəsi yaranmağa başladı. Belə istehsal müəssisələrindən biri 2000-ci ildə əsası qoyulan “Mətanət A” şirkətidir. Yarandığı gündən nou-hau (know-how), innovativ SMART texnologiyaların tətbiqi ilə istehlakçıların böyük rəğbətini qazanan “Mətanət A” şirkəti 19 illik uğurlu biznes fəaliyyəti ilə sənayenin inkişafına hər zaman öz töhfəsini verib. Şirkət Azərbaycanda quru inşaat qarışıqlarının ilk istehsalçısıdır. Öz məhsullarında “XXI əsrin texnologiyası” statusunu qazanmaq əzmində olan yüksək rəqəmsal nanotexnologiyasını tətbiq etməklə bu gün həm yerli, həm də xarici bazarlarda geniş müştəri auditoriyası toplayıb. Şirkətin istehsal etdiyi məhsullar ölkəmizdə keyfiyyət göstəricisi kimi tanınır. Bu gün şirkət 3 sistemdə, 24 məhsul qrupunda fəaliyyət göstərməklə 200-dən çox ticarət markasına və 1000-dən artıq məhsul çeşidinə malikdir.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin həyata keçirdiyi məqsədyönlü siyasətin nəticəsi olaraq bu gün dövlətimiz sürətlə inkişaf edir. Regionlarımızın sürətli inkişafı, böyük infrastruktur layihələrinin gerçəkləşməsi, qeyri-neft sektorunun inkişaf etdirilməsi istiqamətində həyata keçirilən sistemli tədbirlər, sənayenin inkişafı, yeni iş yerlərinin açılması, regionda nəhəng iqtisadi layihələrin icra edilməsi məhz dövlət başçısının həyata keçirdiyi uğurlu iqtisadi siyasətin nəticəsidir. Yaradılmış bu şəraitin məntiqi nəticəsi olaraq ölkəmizdə yeni və müasir istehsal sahələrinin sayı sürətlə artır. Bu yeni istehsal sahələrindən biri də "Mətanət A" şirkəti tərəfindən 2014-cü ildə əsası qoyulan və 2017-ci ildə tamamlanmış, Qazax rayonunda yerləşən AZERLIME əhəng zavodudur. Qabaqcıl texnologiyalar və müasir avadanlıqlarla təchiz olunan AZERLIME əhəng zavodu yerli sənaye müəssisələrini keyfiyyətli əhənglə təmin etməklə yanaşı, idxaldan asılılığı azaldacaq və istehsal olunmuş məhsulun 50% -i ixrac ediləcək.

AZERLIME əhəng zavodu müxtəlif fraksiyalarda və müxtəlif məqsədlər üçün 2 növdə məhsul istehsal edir:

- sönməmiş əhəng
- söndürülmüş əhəng

MƏHSUL HAQQINDA

AZERLIME Suvaq üçün əhəng məhsulu xüsusi texnologiya ilə təbii əhəng daşından hazırlanan yüksək aktivliyə malik hidrotasiyalı (söndürülmüş) əhəngdir. Bu məhsul qum-sement məhsuluna qatılır və **əhəngli suvaq** əldə edilir.

ГОСТ 9179-77 və TS EN 459-1 saylı standartların tələblərinə uyğundur.

İSTİFADƏ SAHƏLƏRİ

İnşaat sektorunun müxtəlif sahələrində

- Binaların daxili və xarici səthlərində kərpic, mişardaşı və digər növ daşlardan hörülmüş divarların suvanmasında;
- Hörgü işlərində;
- Döşəmələrdə hamar səthin (стя́жка) yaradılmasında istifadə olunur.

İSTİFADƏ QAYDALARI

Quru qarışığın hazırlanması

AZERLIME suvaq üçün əhəng məhsulu qatılmış suvağı hazırlamaq üçün 6 çalov qum (şəkil 1), 1 çalov M300 markalı sement (şəkil 2) və 1 çalov AZERLIME suvaq üçün əhəng məhsulu qatılır (şəkil 3) və alınmış quru qarışıq çalov ilə yaxşıca qarışdırılır (şəkil 4).

XƏRCLƏRİNİZƏ

25

%-Ə

qədər

QƏNAƏT

edir

AZERLIME qatılmış əhəngli suvağın hazırlanması

Hazır quru qarışığa (qum, AZERLIME əhəngi və sement qarışıqlı) qarışıq miqdarının 15-18% -i qədər su əlavə edilir (şəkil 5) 3-5 dəqiqə ərzində gözlədikdən sonra isə çalov ilə qarışdırılır. (şəkil 6) Nəticədə **əhəngli suvaq** alınır.

Əhəngli suvağın hazırlanması üçün tələb olunan quru inşaat qarışıqlarının və suyun miqdarı aşağıdakı kimidir:

Qarışıqların adları	Qarışıqların miqdarı (çəki ilə)	Qarışıqların miqdarı (çalov ilə)
Suvaq üçün əhəng	5,7 kq	1 çalov
Sement M300	13 kq	1 çalov
Suvaq qumu	81,3 kq	6 çalov
Tələb olunan suyun miqdarı	15-18l	15-18%

AZERLIME suvaq üçün əhəng məhsulu qatılmış əhəngli suvağın tətbiqi

İstifadəyə hazır əhəngli suvaq məhsulundan qırmızı kərpiç, mişardaşı və digər növ daşlardan hörülmüş divarların suvanmasında, hörgü işlərində və səthlərin hamarlaşdırılmasında istifadə olunur.(şəkil 7,8,9)

AZERLIME SUVAQ ÜÇÜN ƏHƏNG MƏHSULU QATILMIŞ ƏHƏNGLİ SUVAĞIN TEXNİKİ GÖSTƏRİCİLƏRİ

Rəngi	açıq boz
İstifadə temperaturu	+5˚C - +30˚C
Su / Əhəngli suvaq	15-18 litr su/100 kq suvaq
Qarışığın istifadə müddəti	120 dəqiqə
Minimum tətbiq qalınlığı	8mm
Maksimum tətbiq qalınlığı(mərhələli tətbiq olunmaqla)	100 mm
İstifadəyə hazır məhsulun sıxlığı	2100 kq/m^3
Quruyandan sonra məhsulun sıxlığı	1800 kq/m^3
Möhkəmlik həddi • əyilmədə • sıxılmada	≥2 N / mm^2 ≥5 N / mm^2

AZERLIME SUVAQ ÜÇÜN ƏHƏNG MƏHSULU QATILMIŞ ƏHƏNGLİ SUVAQLA QARA SUVAĞIN MÜQAYİSƏSİ

AZERLIME SUVAQ ÜÇÜN ƏHƏNG MƏHSULU QATILMIŞ ƏHƏNGLİ SUVAQ	QARA SUVAQ (Qum-sement qarışığı)
AZERLIME suvaq üçün əhəng məhsulundan istifadə etməklə hazır suvaq qarışığında sementin miqdarına 50%-ə qədər qənaət edilir və eyni zamanda AZERLIME suvağın möhkəmliyini artırır.	Qara suvaqla isə daha çox sement istifadə olunur.
AZERLIME suvaq üçün əhəng məhsulu qatılmış eyni çəkili quru qarışıqdan alınan əhəngli suvaqla daha çox səth suvanır.	Qum-sement qarışığından istifadə edilməklə hazırlanmış eyni həcmli quru qarışıqdan qara suvaqla isə daha az səth suvanır
AZERLIME qatılmış əhəngli suvaqla suvanmış səthlərdə çatlar minimuma enir.	Qara suvaqla suvanmış səthlərdə isə daha çox çatlar yaranır.
AZERLIME qatılmış əhəngli suvaq antibakterialdır, ekoloji təmizdir.	Qara suvaqda isə bakteriyalar daha sürətlə yaranır və çoxalır.
AZERLIME qatılmış əhəngli suvaq yüngüldür, istifadəsi rahatdır və ustanı yormur. Yapışqanlığı yüksək olduğu üçün yerə tökülmür.	Qara suvaq isə əksinə ağırdır, istifadəsi çətindir. Suvaq yerə tökülür və usta istifadə zamanı yorulur.

Nəticədə siz xərclərinizə 25% -ə qədər qənaət edirsiniz.

QABLAŞDIRMA

AZERLIME suvaq üçün əhəng məhsulu 20 kq-lıq polietilen və ya kağız kisələr, 500 və 1000 kq-lıq polietilen Biq Bəq kisələrdə qablaşdırılır.

SAXLAMA MÜDDƏTİ VƏ QAYDASI

AZERLIME suvaq üçün əhəng məhsulu açılmamış kisələrdə, quru şəraitdə, bir-birinin üstündə maksimum 10 ədəd olmaqla 1 il saxlanıla bilər.

XƏBƏRDARLIQLAR

- AZERLIME məhsulundan istifadə olunmaqla suvaq hazırlanılan zaman istifadə olunan suyun, qabların və döşəmənin təmiz olmasına xüsusi diqqət edin;
- Suvaq üçün hazırlanmış quru qarışığa sudan başqa heç nə əlavə etməyin.

ZƏMANƏT VƏ TEXNİKİ DƏSTƏK

- Texniki göstəricilərdə qeyd edilmiş məlumatlar elmi və təcrübi biliklərə əsaslanır;
- “Mətanət A” şirkəti məhsulun müvafiq texniki şərt və dövlət standartlarına uyğunluğuna zəmanət verir.
- Şirkətin mütəxəssislərinin rəhbərliyi altında görülən işlər istisna olmaqla, digər istifadəçilər tərəfindən təlimatdan kənar istifadə halları zamanı yarana biləcək problemlərə görə “Mətanət A” şirkəti məsuliyyət daşımır;
- Şirkət elmi-texniki inkişafla bağlı məhsulda dəyişiklik etmə hüququnu özündə saxlayır;
- Texniki dəstək və ya daha geniş məlumat almaq üçün “Mətanət A” şirkətinə müraciət edin!

Texniki dəstək və ya daha geniş məlumat üçün “Mətanət A” şirkətinə müraciət edin.
Materiallar üçün verilən istifadə qaydaları və texniki göstəricilər beynəlxalq standartlara uyğun olaraq akkreditasiya olunmuş laboratoriyada keçirdiyimiz testlər və təcrübələrimiz nəticəsində əldə edilib.

DİQQƏT! Kataloqda qeyd edilən göstəricilər, faktlar, izahlar, rəqəmlər “Mətanət A” şirkəti tərəfindən hesablanıb və formalaşdırılıb. Bu göstəricilər digər firmaların eyni tipli məhsulları üçün etibarlı deyil. Bu göstərici və faktları şirkətin icazəsi olmadan bu və ya digər formada çap etmək qəti qadağandır və əgər belə fakt aşkar olunarsa, qanunvericiliyin imkan verdiyi çərçivədə qarşısı dərhal alınacaq. Şirkət texnoloji inkişafla bağlı bu kataloqda qeyd edilən göstəricilərə dəyişiklik etmə hüququnu özündə saxlayır. AZERLIME ticarət markası “Mətanət A” şirkətinin müvafiq dövlət orqanlarında qeydiyyatdan keçmiş əmtəə nişanıdır.

©“Mətanət A” 2019

AZERLIME®

“AZERLIME” əhəng zavodu
Azərbaycan, Qazax rayonu
Tel.: *3030
info@azerlime.az
www.azerlime.az

2019